# Sultan Əbdülhəmid:

# “Erməni məsələsini ermənilərin axırına çıxmaqla həll etmək olar”





**Mürsəl İrəvanlı,**

**Yazıçı-publisist, M. Qorki adına Beynəlxalq mükafat laureatı Gəncə şəhəri**

**IX yazı**

***...Ön Qafqazda türk soykökü etnosların tarixinin öyrənilməsinə qarşı çıxmaq üçün bir vasitəyə çevrildi. Ancaq son dövrün araşdırılmaları sübut edir ki, albanların tarixi izini nə Alp dağlarının adında, nə də Şotlandiyada (belə üzdəniraq mülahizələr də olmuşdur) axtarmaq üçün lüzum yoxdur. Çünki qazax, qırğız və türkmən xalqlarının keçmiş tərkibində “alban” adını daşıyan konkret türkdilli soy olmuşdur. “Alban” sözünü orta əsrlərdə əvəz etmiş “Arran” sözü də türk mənşəlidir. Bəs alban onomastikasında türk mənşəli adlar necə anlaşdırıla bilər: III əsrdə alban sərkərdəsi Zoberin adı hun sərkərdələrindən birinin adı (Zoberqan) ilə eynidir.***

“Ağvan tarixi” kitabında, yəni Albaniyanın öz tarixi ənənəsi üzrə 488-ci il kilsə qanunlarına imza atan baş ruhanilərdən birinin də adı türk mənşəli – Manas; VII yüzildə yazılmış həmin əsərdəki Qazax və Qor “Kitabi Dədə Qorqud” dastanında oğuz başbilənlərinin adlarına uyğun gəlir. Ən başlıcası, Azərbaycan və bir sıra başqa türk xalqlarının tarixi yaddaşının əski abidəsi olan “Kitabi Dədə Qorqud” dastanında albanların adı çəkilir. IV boyda isə gündoğan Zaqafqaziyada – Dərdənd-Gürcüstan-Ermənistan arasında yerləşən “Oğuz elinin” ikinci hökmdarı Qazan xan “Albanlar başı” adlandırılır. VII boyda isə gənc alplardan biri “ağ-boz atlar çapdırur albanlar gördüm” söyləyir.

***“Ağvan tarixi” kitabında, yəni Albaniyanın öz tarixi ənənəsi üzrə 488-ci il kilsə qanunlarına imza atan baş ruhanilərdən birinin də adı türk mənşəli – Manas; VII yüzildə yazılmış həmin əsərdəki Qazax və Qor “Kitabi Dədə Qorqud” dastanında oğuz başbilənlərinin adlarına uyğun gəlir. Ən başlıcası, Azərbaycan və bir sıra başqa türk xalqlarının tarixi yaddaşının əski abidəsi olan “Kitabi Dədə Qorqud” dastanında albanların adı çəkilir. IV boyda isə gündoğan Zaqafqaziyada – Dərdənd-Gürcüstan-Ermənistan arasında yerləşən “Oğuz elinin” ikinci hökmdarı Qazan xan “Albanlar başı” adlandırılır. VII boyda isə gənc alplardan biri “ağ-boz atlar çapdırur albanlar gördüm” söyləyir***

***Sözün əsl mənasında bu parçaların elmi dəyəri heç nə ilə ölçülməzdir. Axı, oğuz alplarından Əmən bəy kitabda Bəkdüz soyundan olan döyüşçülərin minbaşçısı, Dügər bəy başqa bir “qovum” tayfa döyüşçülərinin minbaşçısı, bəylər bəyi Qazan xan isə alban döyüşçülərinə başçıdırsa, albanlar oğuz etnosunun tərkib hissəsidir. Onlar oğuzlar üçün yad deyil, doğma “qovum” soylardan biridir. Belə isə, Qafqaz albanları ilə Azərbaycan xalqının etotarixi ilgəklərini üzə çıxarmış oluruq. Hər halda bütün bunlar deməyə əsas verir ki, buradakı bağlılıq Urartu ilə indiki Ermənistan tarixi arasındakı bağlılıqdan qat-qat üstündür. Beləliklə, bəzi nankorların təbirincə deyilərsə, türk xalqının “tarixinin geri çəkməyə” luzum yoxdur. Çünki bu barədə başlıca bilik qaynağı “əcayib cəhdlərlə” dolu bizim öz yazılarımız deyil, V-VII əsrlərdə yaşamış erməni tarixçiləridir. Movses Horenatsinin yazdığına görə ‘Ermənistan çan Vacarşakın hakimiyyəti illərində (miladdan öncə 153-131-ci illərdə) Ermənistanda, Ormansız Bassan adlanan yerdə bulqar türklərinin başçısı Bahadur Bulğar Vəndin köçürüb gətirdiyi ailələr yerləşdi, onun adı ilə bağlı buralar Vənəd adlandırıldı.*** Bu gəlmələrin kəndləri indi də onun qardaşları və sonrakı nəslinin adlarını daşımaqdadır”. Xatırlada bilərik ki, indinin özündə Araz vadisində, Naxçıvan ərazisində Vənənd və Vənətli kəndləri mövcuddur. Tarixçi Lazar Parpetsi isə V əsrdə Zaqafqaziyanın tən ortasında, Gürcüstana bitişik “Gəngər vilayətinin” yerləşdiyini yazır. (sonralar bu vilayət Lori-Ləlvər adlandırılmışdır – M.İ.) tədqiqatçı yazır ki: “482-ci ildə sasanilərlə döyüşdə basılan Vahan Mamikonyan və Vaxtanq Qorqasalın qoşunları “qonşu hunlardan” kömək almaq üçün Gəngər torpağına üz tutmuşdular”. Alban tarixçisi Musa Kağankatlıya görə, VII yüzillikdə Kürün sol sahilində (sol sahil Azərbaycanı) “Hun dövləti” var idi və bu dövlət Kürün sağ sahilində (Aranda) hökmranlıq edən Alban knyazı Cavanşirlə “dostluq və qardaşlıq” yaratmışdı.

Bütün bu qaynaqlar sübut edir ki, VII əsr və ondan əvvəlki dövrlərdə də Azərbaycan torpağı türklər yaşayan bir dövlət kimi bəlli idi. Əl-Təbəri tarixində də, hələ Məhəmməd peyğəmbərin sağlığında burada türklərin hökmran olması qeydə alınmışdır. Übeyd ibn Şəriyyə əl-Cürhuminin “Əxbar Xilafə” əsərində xəlifə I Müəvviyyənin (661-680) – “Azərbaycan haqqında ələqən, bildiyin nədir?” sualına müəllif belə cavab vermişdir: “Ora çoxdan türk torpağıdır. Onlar orada toplaşaraq bir-birinə qarışmış və təkmilləşmişlər. Çox mehriban, qayğıkeş, qonaqpərvər, qeyrətli insanlardı”. (Bax: Əbu Məhəmməd Əbdülməlik ibn Haşam “Kitab üt-ticanfa – mülk himyar”. Heydərabad, hicri 1377, səh. 312-487). Əgər belə olmasaydı, IV-VII yüzilliklərdə yazılmış “erməni” tarixi və dini kitablarında indi də Azərbaycan dilində işlənməkdə olan bir sıra türk sözlərinin haradan alınması havadan asılı qalardı.

Yeri gəlmişkən, bu sözləri Azərbaycanlı mütəxəssislər tərəfindən uydurulmamışdır, hələ 150 il bundan öncə Alman şərqşünası Mordtman kəşf etmişdi. O, yazmışdır ki, onun araşdırmasında söhbət “IV, V, VI və VII əsrlərdə erməni dilində işlənmiş olan türk sözlərindən gedir, o çağlarda hələ heç kəc səlcuqilər, osmanlılar və başqaları barədə bir şey eşitməmişdi” (Bax: Zeitsehçi iti Çeseldsehalt, Leipziq, 1870 XXIV, □ 80). Unutmaq olmaz ki, IV-VII əsrlərin xristian kitab ənənəsi bütpərəst dünyasına təbii olaraq yağı gözü ilə baxırdı və “yabançı”, “barbar” türk dilindən alınma sözlərin “nəcib” xristian kitablarına qonmasına göz yumurdusa, bunu ancaq və ancaq azərbaycanlılara ermənilərin qonşuluğu ilə izah etmək olar. Nə yağış, nə külək həyatda olmayan bir xalqın dilindəki sözləri erməni kitab ənənəsinin malı edə bilməzdi.

İstər yazılı mənbələr, istərsə xüsusilə arxeoloji qazıntı materialı VI əsrin sonu və VII əsrin əvvəllərində ölkəmizin mədəni siması haqqında bizə məlumat verir. Mənbələr göstərir ki, V əsrin əvvəllərində Azərbaycanın şimal hissəsinin (Arran) öz əlifbası olmuşdur və bu əlifbanın gürcü və erməni əlifbaları ilə oxşar cəhətləri var imiş. Hələ V əsrdə Arranda zəngin ədəbiyyat var idi, lakin sonralar bu ədəbiyyat yox olmuşdur.

Arran (Alban) əlifbası hərflərinin sayı haqqında müxtəlif fikirlər vardır. N.Karamyants belə hesab edir ki, hərflərin sayı 21 idi. Ellis Mins belə güman edir ki, hərflərin sayı 32 imiş, lakin A.Q.Şenadze və digər tədqiqatçılar belə hesab edirlər ki, hərflərin sayı 52 olmuşdur.

Bundan belə bir nəticə çıxarmaq olar ki, qədim Albaniyada təkcə bir xalqın deyil, bir neçə xalqın öz milli yazısı olmuşdur.

Mingəçevir və Gəncədə arxeoloji qazıntılar zamanı tikinti hissələri və saxsı qablar üzərində alban oyma yazılarının bir neçə parçası tapılmışdır.

A.Şenadzenin göstərdiyi kimi, alban yazası məsələsini daha mükəmməl aydınlaşdırılması baxımından Azərbaycan ərazisində bir çox məbəd binası xərabələrini ətraflı yoxlamaq lazımdır, çünki alban əlifbasının varlığı heç bir şübhə doğurmur.

***‘Mingəçevirdəki qazıntı zamanı tapılan alban əlifbası parçaları təsdiq edir ki, V-VII əsrlərdə Appanın öz yerli yazısı var idi və bu yazı ölkədə ərəb hökmranlığı daha qurulmazdan əvvəl mövcud olmuşdur. Belə güman etmək olar ki, Albaniya (Appanda) yazılı mənbələri və ədəbiyyat xəlifə Əbd ül Malikin (685-705) hökmranlığı dövründən başlayaraq məhv edilmiş və ya sıxışdırılıb aradan çıxarılmışdır. Divanxanalar ərəb dilinə keçdi, alban yazısı, habelə fars və Xərəzli yazıları, əhali içərisində savadlı təbəqələrin azlığı və Qriqorian kilsəsinin təzyiqi üzündən sıxışdırılıb unuduldu və təbii olaraq məhv oldu. Bu zaman əlbəttə ki, erməni dili alban dilini üstələdi”. (bax: E.A.Paxomov ‘Kratkiy kurs istorii Azerbaydjana”, Moskva, 1968, str. 15).***

Bir əsas məsələyə də diqqət çəkək ki, XIII-XV əsrlərdə Bluz Hovanes, Erzinqatsi, Tilkurantsi, Başıtəssi kimi erməni aşıq və şairləri demək olar bütün əsərlərini azərbaycanca yazırdılar.

Nəsimi şeirlərini təbliğ etdikləri üçün erməni oğlu Budaq Armtetsi oda yaxılmış, Xaçatur Tiqranarketsinin isə, Nəsimi kimi dərisi soyulmuşdur. Bütün bunlar Azərbaycan türkcəsinin artıq VII-XV yüzilliklərdə xalqlararası mədəni bölüşmə və əlaqə vasitəsi olduğunu göstərir.

XVII əsrin 50-ci illərində Qolіştiniya (Almaniya) elçiliyinin katibi, böyük alman alimi Adam Oleari İran paytaxtı İsfahanda Azərbaycan türkcəsinin hakim yer tutduğunu heyrətlə qeyd etmişdi. Sarayda elçilərin şərəfinə verilən qonaqlığın bitdiyini saray Eşik ağası belə bir ifadə ilə yekunlaşdırmışdı: “Süfrə haqqına, şahın dövlətinə, qazilər qüvvətinə – Allah deyəlim”. Bu misraları A.Oleari latın hərfləri ilə yazmışdır. “Azərbaycan” adını daşıyan ölkənin tarixi coğrafiyası barədə çox danışmağa luzum yoxdur.

Yuxarıda Əl-Curhumi və Təbərindən gətirilən parçalar belə bir məmləkətin qədim zamanlardan mövcud olmasını göstərir. Ərəb tarixçisi Əhməd əl-Yəqubi (—-? 897 ildə ölmüşdür) Arazdan yuxarı yerləşən Alban torpaqlarının ərazisini “Azərbaycan əl-ulya” – yəni yuxarı Azərbaycan adlandırır. Başqa bir ərəb tarixşünası Yaqut əl-Həməvi (1179-1229) isə “Mücəm əl-buldan” əsərində yazır:

- “Azərbaycan bələd kəbir və dövlət əzim...” yəni Azərbaycan geniş ölkə və böyük dövlətdir. XII-XIII əsrlərdə Azərbaycan Atabəylər dövlətinin tarixi, onun başçısı sultan Qızıl Arslanın Gəncəli şeyx Nizaminin görüşünə gəlməsi, bu dövlətlə bağlı Naxçıvan şəhərində (təbii ki, dövlət xəzinəsi burada saxlanılırdı) əzəmətli Möminə Xatun türbəsinin bu günə kimi qalması az-çox biliyi olan hər kəsə bəllidir. XV yüz il Azərbaycan dövlətinin başçısı sultan Cahan Şah Qaraqoyunlu azərbaycanca bir milli “pasport” – ədəbi “Divan” qoyub getmişdir. (Yeri gəlmişkən qeyd olunmalıdır ki, Divanın ancaq bir əlyazması 1967-ci ildə amerikalı alim, erməni əsilli Arutyun Qazaryan tərəfindən İngiltərə arxivindən tapılıb. Alim bu tapıntını İrəvana göndərmiş və hazırda bu tarixi sənəd Respublika Əlyazmalar İnstitutunun (Mamenadaran) arxivində saxlanılır – M.İ.). Yenə həmin əsrdə yaşamış, Təbrizdə şahlıq etmiş Ağqoyunlu Uzun Həsəni (1453-1478) tarixçi Evliya Çələbi öz “Siyasətnamə”sində “Azərbaycan hökmdarı” adlandırmaqla milli dövlətimizin varlığını bir daha sənədləşdirmiş olur”.

Məlumdur ki, Ağqoyunlular xalqımızın təşəkkülündə Səfəvilərdən əvvəl mühüm rol oynamış oğuz tayfalarındandır.

Bayraqlarında ağ qoç rəmzi olan bu böyük tayfa birliyi hələ erkən orta əsrlərin başlanğıcından, bəlkə də əvvəl Cənubi Qafqazda, əsas etibarilə Qafqaz dağları ilə Araz çayı arasındakı Ağrı dağı düzənliyində, o cümlədən aranlı-dağlı Qarabağda, Göyçə gölü hövzəsindəki torpaqlarda, Alagöz dağının ətəklərində və başqa yerlərdə yaşayırdılar. Ağqoyunluların ön dəstələri Azərbaycanın cənub rayonları, Şərqi Anadolu, Qərbi Fars, Dəclə və Fərat vadiləri də daxil olmaqla çox geniş ərazidə yayılmışdı.

1501-ci ildən paytaxtı Təbriz olmaqla yaranmış Səfəvilər dövlətinin də beşiyi Azərbaycan olmuşdur. Tarixi mənbələrdən məlumdur ki, Səfəvilər sülaləsinin yüksəlişi monqol istilası dövrünə təsadüf edir. XIII-XIV yüzilliklərdə sufi-dərviş məktəbi yarandı və tezliklə əhali arasında geniş yayıldı. Bunlardan biri də Ərdəbildə təşəkkül tapdı. Məktəbin və şeyxlər sülaləsinin adı müqəddəs sayılan Şeyx Səfiəddin İshaq əl-Musəvi əl-Ərdəbilinin (1252-1334) adı ilə bağlıdır. Rəvayətə görə Səfəvilərin banisi Şeyx Səfiəddin iyirmi birinci nəsildən olan yeddinci şiə imamı Musa Kazımdan törəmədir. Bu da bilavasitə Həzrət Əlinin və peyğəmbərin qızı Fatimənin iyirmi altıncı nəslinə mənsubdur.

***Şeyx Səfiəddin İshaqdan sonra Səfəvilərin görkəmli başçıları Şeyx Səfiəddin Musa (1334-1392), Şeyx Xacə Əli (1392-1427), Şeyxşah adı ilə məşhur olan Şeyx İbrahim (1427-1447), Şeyx Cüneyd (1447-1460), Şeyx Heydər (1460-1488), Şeyx Sultanəli (1488-1495), nəhayət Şah İsmayıl Xətai (1487-1524) Səfəvi dövlətini idarə etmişdir ki, bu da Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Çünki saray dili həmişə azərbaycan türkcəsi olub. Bu faktı hətta Azərbaycan xalqının varlığını danmaq istəyən XX əsr İran tarixçiləri də etiraf edirlər: “Azərbaycan dili Səfəvilər hakimiyyətinin ilk illərindən rəsmi saray dili olmuş və uzun müddət rəsmi dil olaraq qaldı”. (Bax: Əbdülqasım Tahiri, ‘tarixi-ictimai - i və siyasi - ye İran”, Tehran, 1347-ci il, səh. 173).***

***Azərbaycan dövlətçilik ənənələri haqda bu kimi faktlar başqalarına xoş gəlməyib paxıllıq etsələr də, ancaq bizim bəsimizdir...***

**(ardı var)**